# NAXÇIVAN MUXTAR RESPUBLİKASININ
# NAZİRLƏR KABİNETİ

## Q Ə R A R

**Naxçıvan Muxtar Respublikasının 2025-ci il üzrə büdcəsinin göstəriciləri haqqında**

"Büdcə sistemi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 31 oktyabr tarixli 809 nömrəli Fərmanına əsasən Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. "Naxçıvan Muxtar Respublikasının 2025-ci il üzrə büdcəsinin göstəriciləri" bəyənilsin (əlavə olunur).

2. Bu Qərarın 1-ci hissəsində qeyd olunan layihələr "Büdcə sistemi haqqında" Azərbaycan Respublikası Qanununun 12-ci maddəsində nəzərdə tutulmuş digər sənədlərlə birlikdə Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə təqdim edilsin.

3. Bu Qərar imzalandığı gündən qüvvəyə minir.

**Naxçıvan Muxtar Respublikasının**
**Baş naziri** **Ceyhun Cəlilov**

Naxçıvan şəhəri, "21" noyabr 2024-cü il

№ 67